**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 245**

**Bakı şəhəri, 27 may 2019-cu il**

**“Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 7 yanvar tarixli 1 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”nin 16-cı hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 7 yanvar tarixli 1 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 55) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 15 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavinləri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbərinin müavini

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müşaviri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının İnsan resursları, hüquq və sənədlərlə iş şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının I ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının II ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının III ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının IV ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Beynəlxalq əlaqələr və protokol şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Maliyyə və təminat şöbəsinin müdiri.”.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Novruz Məmmədov**